GÜNEY AZƏRBAYCAN

# "Azərbaycan" qəzetinin səhifələrində

95-ci yazı

**Azərbaycanlı bir qadının rəşadəti**

Əsəd Nəsirin imzası ilə bir şəxs redaksiyamıza göndərdiyi 21.04.1946-cı il tarixli məktubunda Raziyə xanım adında bir azərbaycanlı qadının 20.04.1946-cı il tarixində 409 nömrəli avtobusda Tehrandan Təbrizə gəlirkən Takestanda jandarmalar tərəfindən saxlanıb Qəzvinə göndərildiyi haqqında belə yazır: "Dünən saat 12-də 409 nömrəli avtobus Tehrandan gəldi. Mənim qardaşım da avtobusun sərnişinlərindən idi. Qardaşım mənə belə nəql edirdi ki, biz 23 nəfər Tehrandakı "Nəsiri" qarajından Təbrizə hərəkət etdik. Bizim içərimizdə "Azərbaycanın könüllü xanımları" libasında bir nəfər də xanım Təbrizə gəlirdi. Uniformalı olduğu üçün kəməri, silahı da var idi.

Çox da tərbiyəli və nəcabətli bir qadın olduğu üçün bizlərə hər dayanacaqda nəzakətlə danışıb vətəndaşlıq məhəbbəti göstərməkdən geri qalmırdı. Xülasə, bizi Takestanda (yəni Siyahduvunda) İran qoşunları saxlayıb bir-bir axtardılar. Nə qədər məktub və qəzet var idisə, hamısını aldılar. Bu şərafətli qadın Raziyə xanıma axtarış növbəsi çatan vaxt İran zabitləri ondan silahını istədikdə o xanım çox rəşadətli qəlb ilə dedi ki, mən qızıl güllə ilə ölməyə hazıram, amma silahımı verməyə hazır deyiləm. Məni öldürməmiş sizə silah vermək yoxdur. Bu sözlər güllə kimi o şərəfli qadının ağzından çıxanda sərnişinlər və orada olan Tehran zabit və əsgərləri heyrətdə qaldılar. Tüklərimiz biz-biz durdu. Onun bir böyük çamadanını və hər nə qədər yanında kağızı var idisə, onların hamısını götürüb özünü də bir süvari maşına mindirib Qəzvinə doğru qaytarıb apardılar".

Aslanın erkəyi, dişisi olmaz. Bu məsəl də bizə sübut olundu. Eşq olsun bu dişi aslanın rəşadətinə!

***"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 181, 24.04.1946***

***

**Hər bir şey azadlıq üçün**

Firqəmiz 8 aylıq fəaliyyəti dövründə böyük və gözlənilmədən də artıq müvəffəqiyyətlərə nail olubdur.

Birinci növbədə Azərbaycan xalqı öz bəslədiyi arzularını icra mövqeyinə çatdırdı. İkinci növbədə Milli hökuməti yaratmaqla əbədi olaraq xain irticaların əllərini Azərbaycandan kəsdi. Vətənimizin islahatı uğrunda az bir müddətdə əsaslı addımlar atıb maarif, səhiyyə, kənd təsərrüfatı, sənaye, abadlıq sahələrinin genişləndirilməsi üçün nailiyyətlər əldə etdi.

Bu müvəffəqiyyətləri daha da genişləndirmək və xalqımızın bütün amalını yerinə yetirmək üçün gərək milli qüvvələrimiz bir yerdə birləşsin. Bu planı icra etmək üçün birinci növbədə bütün firqə üzvləri, ikinci növbədə bütün azadlıqsevər adamlar gərək hərbiləşsin. Xalq qoşunları az bir müddətdə müntəzəm hala düşüb və Azərbaycan Milli Hökumətindən və xalqımızın azadlığından müdafiə etməyə hazırdır. Deməli lazımdır ki, bu miqdar kifayət etməz. Gərək firqəmizin qərargahı və firqə üzvləri silahlı qoşun halına düşsünlər. Gərək firqə üzvləri ümumən müharibə fənlərini öyrənsinlər.



Bu məqsədi ifa etmək üçün fədailər qərargahı təşkil olunub. O kəslər ki, gecə-gündüz fədai sıralarında qalmaq istəyirlər, onlar fədailərin qərargahında adlarını yazdırmalıdırlar. Bunlar üçün yemək-içik və yatmaq yeri (atların yemi) fədailər qərargahının öhdəsinədir. Bundan başqa ayda 30 tümən piyada və 40 tümən süvarilərə maaş veriləcəkdir.

O kəslər ki, idarələrdə ya ayrı işlərlə məşğuldurlar, onlar üçün də imkan vardır ki, fədailər qərargahında fəxri fədailər sırasında adlarını yazdırsınlar. Bu aydındır ki, zəif bir millət əsarət və fənaya məhkumdur. Gərək daha qüdrətli, daha da mütəşəkkil olaq. Çünki 24 il tamam Azərbaycan xalqının qanını sorub və Azərbaycan sərvətini xaricə daşıyan o qaniçən xain mürtəcelər hələ də ümidlərini Azərbaycandan kəsməyiblər. Onlar can atırlar, yenə də Azərbaycan xalqını əsir edib onların zəhmətlərinin səmərəsini qəsb edib özləri üçün Şimranlarda büllur parklar qayırtdırsınlar. Onlar istəyirlər, yenə də Azərbaycana qayıdıb diktatorluq büsatı döşəsinlər. Onları düşündürmək lazımdır ki, bunlar hamısı xam xəyaldır. Daha bu cür fikirlərin, bu cür xəyalların zamanı çoxdan keçmişdir. Daha bu günki dünya 24 il bundan qabaqkı dünya deyildir. Daha azərbaycanlı qul ola bilməz. Gərək Azərbaycan cavanları və Azərbaycanın qocaman qəhrəman fədailəri bu gün öz varlıq və ləyaqətlərini dünyaya isbat etsinlər. Bir ədəd palaza da gümanımız gəlirsə, gərək onu satıb qoşuna xərc edək. Çünki Azərbaycanımızı hifz etmək üçün qoşun və qüdrət lazımdır. Gərək bütün firqə yoldaşlarımız və bütün azadlıqsevər vətəndaşlarımız bu şüarı nümunə etsinlər ki, məram yolunda ölmək var, dönmək yoxdur.

***İftixar Hüseyni***

***"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 181, 24.04.1946***

***

**Milli mədəniyyət tariximizdən bəzi səhifələr**

**"Namus" tamaşasının müvəffəqiyyəti**

Azərbaycan dövlət teatrı təşkil edildiyi gündən bu günə kimi iki əsər tamaşaya qoyulmuşdur. Dövlət teatrının açılışı münasibəti ilə ilk dəfə məşhur Azərbaycan yazıçısı Cəlil Məhəmmədquluzadənin (Molla Nəsrəddinin "Anamın kitabı" dramasının tamaşaya qoyulması və bu tamaşanın müvəffəqiyyəti Təbrizdə istedadlı teatr sənətkarlarının mövcud olduğunu tamaşaçılar qarşısında tərənnüm etdi. "Anamın kitabı" dramasından tamaşaçıların aldığı unudulmaz təəssüratlar cavan dövlət teatrımızın yaradıcı heyətinin daha böyük müvəffəqiyyətlər əldə etmək üçün əlverişli imkanı olduğuna hamını inandırmışdır.

Buna görə də hamı dövlət teatrı tərəfindən hazırlanan ikinci tamaşanın nə səviyyədə hazırlanacağını intizarla gözləyirdi. Aprel ayının 19-da dövlət teatrı tərəfindən tamaşaya qoyulan Şirvanzadənin "Namus" faciəsinin müvəffəqiyyətini nəzərə alsaq, az bir müddət içərisində Təbrizdə teatr sahəsində böyük bir dönüş yarandığını görərik.

Dövlət teatrı tərəfindən tamaşaya qoyulan "Namus" faciəsi sovet rejissoru İsmayıl Əfəndiyevin bədii rəhbərliyi ilə hazırlanmışdır. Aktyorların öz rollarını məharətlə ifa etmələri əsər üzərində diqqətlə işlənildiyini sübut edir. Tamaşanın bədii tərtibini tənzim edən cavan rəssam Vəli Xakdanın çəkdiyi zəhmətlər də səmərəli bəhrələr vermişdir. "Namus" faciəsi birinci pərdədən başlamış sonunci pərdənin axırına qədər böyük müvəffəqiyyətlə nümayiş etdirildi. Hər pərdənin axırında və ya pərdə arası artistlərin tamaşaçılar tərəfindən coşğun ruh yüksəkliyi ilə və alqışlarla qarşılanması buna canlı sübut idi.

Rüstəm rolunu ifa edən əsərin bədii rəhbəri sovet rejissoru İsmayıl Əfəndiyevin öz rolunu ustalıq və məharətlə ifa etməsi tamaşaçıların nəzər-diqqətini xüsusilə cəlb edirdi. İstedadlı sənətkar İsmayıl Əfəndiyevlə yanaşı ,cavan dövlət teatrımızın bütün aktyor və aktrisalarının oyununda da böyük müvəffəqiyyətlər əldə edildiyi nəzərə çarpırdı.

"Namus" faciəsinin bu müvəffəqiyyəti tamaşaçıları əmin edir ki, artıq Təbriz xalqımızın mədəni tələblərini layiqincə ödəyə biləcək milli teatra malikdir. Tamaşanın müvəffəqiyyətlə oynanılmasıyla əlaqədar olaraq Milli hökumətimizin Maarif və Vəqflər naziri cənab Biriya üçüncü pərdədən sonra səhnəyə çıxaraq artistləri təbrik etməklə bərabər "Anamın kitabı" dramasının müvəffəqiyyətlə hazırlanmasında sovet rejissoru İsmayıl Əfəndiyevin çəkdiyi yüksək zəhmət və sərf etdiyi əməklər üçün təşəkkür edərək ona Maarif Nazirliyi tərəfindən bir dəstə gül, Azərbaycan dövlət teatrı artistləri tərəfindən isə bir saat təqdim etdi.

Tamaşaçılar Maarif naziri cənab Biriyanın incəsənət ulduzlarına verdiyi yüksək qiyməti arasıkəsilməyən alqışlarla qarşıladılar. Heç şübhəsizdir ki, Azərbaycan dövlət teatrının tamaşaya qoyduğu "Anamın kitabı" və "Namus" əsərlərinin belə müvəffəqiyyətlə tamaşaya hazırlanması Təbriz teatrının sürətlə inkişaf yoluna düşməsində atılmış ilk addım olacaqdır. Biz əminik ki, cavan milli dövlət teatrımızın gələcəkdə daha böyük müvəffəqiyyətlər əldə etməyi Azərbaycanda milli teatr sənətimizin daha da inkişaf etdirilməsi uğrunda səmərəli işlər görəcəkdir. Cavan milli teatrımızın aktyor və aktrisalarına milli dövlətimizin daha yaxından diqqəti sayəsində öz işlərində böyük müvəffəqiyyətlər əldə etmələrini arzulayırıq. İncəsənət ulduzlarımıza eşq olsun!

***S. Yunis***

***"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 181, 24.04.1946***

***

**Məmləkət xəbərləri...**
**Xanımlarımız da silahlanırlar**

Xanımlar klubu tərəfindən Təbriz şəhər komitəsinə edilən xahiş və təkliflərə görə şəhər komitəsinin 20.04.1946-cı il tarixli iclasında xanımların da Milli meydanda hərbi təlimlər almaq üçün yazılan proqram üzrə hər gün öz vaxtında hazır olmaları qərara alınmışdır. Təbriz Milli meydanında hərbi təlimlər.

Apel ayının 21-də bazar günü bütün homələrin (firqənin rayon komitələrinin - red.) manqa, tağım, bölük komandirləri və texniki şuraların heyəti günortadan sonra Milli meydanda hazır olub hərbi və texniki təlimlər keçirdilər.

***"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 181, 24.04.1946***

***

**Məmləkət xəbərləri...**
**Mədəniyyət evində**

Bazar ertəsi günü aprel ayının 22-də mədəniyyət evində Təbriz ziyalıları, qəzetçiləri və mədəniyyət evi heyətinin iştirakı ilə təntənəli bir ziyafət yığıncağı olmuşdur. Bu yığıncaq Sovet İttifaqının böyük sənətkarı cənab Donskoy ilə tanış olmaq üçün təşkil olmuşdur.

Əvvəl mədəniyyət evinin rəisi cənab Bağırzadə bu görüş ziyafətini açdıqdan sonra cənab Donskoya söz verildi. Cənab Donskoy gurultulu alqışlar içində Sovet İttifaqında kino sənayesinin inkişafı və öz yaradıcılığı haqqında müfəssəl bir nitq söylədi. Cənab Donskoy öz nitqində Sovet İttifaqının və Sovet Azərbaycanının kino sənətləri haqqında danışdı.

Sovet Azərbaycanında çəkilmiş filmlərin hamısını Sovet Azərbaycanının öz xalqı yaratmışdır. Cənab Donskoyun çəkdiyi filmlər "Rəngin Kaman", "Polad necə bərkidi" və çoxlu ayrı əsərlərdən ibarətdir. Cənab Donskoy danışdıqdan sonra cənab Cəfərov onun dediklərini tərcümə etdilər. Bu ziyafət məclisi çox səmimi bir mühitdə təşkil olunmuşdu və hamı sovetlərin böyük sənətkarı cənab Donskoy ilə tanış oldular.

"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 181, 24.04.1946

***

AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "İran tarixi və iqtisadiyyatı" şöbəsinin elmi işçisi Saleh Dostəliyev, yazıları elmi redaktə edən, şərhlər verən, anlaşıqlı dildə təqdim edən eyniadlı institutun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Səməd Bayramzadə